QARABAĞ AZƏRBAYCANDIR!



*Polis xalqımıza, müstəqil Azərbaycan dövlətinə, onun hər bir vətəndaşına xidmət edir.*

Heydər Əliyev

# MÜBARİZ KEŞİKDƏ

24 dekabr 2020-ci il
Cümə axşamı

№ 47 (3512)

www.mk.mia.gov.az - polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


## DÖVLƏT VƏTƏNDAŞININ YANINDADIR

### Düşmən təcavüzü nəticəsində əhaliyə dəymiş ziyanın nəticələri aradan qaldırılacaq



İkinci Qarabağ müharibəsində Qələbə qazanan Azərbaycan ərazi bütövlüyünü bərpa etdi. Bu müharibənin ortaya qoyduğu gerçəkliklərdən biri bütün dünyanın bir daha Ermənistanın işğalçı dövlət olmasına şahidlik etməsi idi.

Bununla yanaşı, 44 günlük müharibənin gedişində hər gün məğlubiyyətə uğrayan işğalçı dövlət Azərbaycanın cəbhə xəttinə yaxın və həm də uzaq yaşayış məskənlərini atəşə tutmaqla, mülki vətəndaşları hədəfə almaqla özünün vandal və terrorçu mahiyyətini növbəti dəfə nümayiş etdirdi.

Prezident İlham Əliyevin noyabrın 6-da imzaladığı sərəncamla 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycanın ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsini və aradan qaldırılmasını təmin etmək üçün Baş nazirin sədrliyi ilə Dövlət Komissiyası yaradılıb.

Baş nazir tərəfindən Komissiyanın işinin təşkil edilməsi məqsədilə müvafiq sərəncam imzalanıb və aidiyyəti təyinatlı 11 işçi qrupu təşkil olunub. İşçi qruplarına 11 rayonda mülki əhaliyə, dövlət əmlakına, sahibkarlıq fəaliyyəti subyektlərinə, nəqliyyat vasitələrinə, kənd təsərrüfatı məhsulları və texnikasına, o cümlədən əhaliyə məxsus tələf olmuş heyvanlar üzrə dəymiş ziyanın müəyyənləşdirilməsi ilə bağlı müvafiq tapşırıqlar verilib.

İlkin mərhələdə əhali məişət əşyalarına dəymiş ziyanla bağlı maddi yardım alacaq. Mülki əhaliyə dəymiş ziyanın ödənilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncama əsasən təcavüz nəticəsində dağıdılmış və ya qəzalı vəziyyətə düşmüş yaşayış evləri üzrə məişət əşyalarına dəymiş ziyanla bağlı hər bir ailəyə 6000 manat, şəxsi əşyalara dəymiş ziyanla bağlı hər bir ailə üzvünə 1500 manat və digər ziyan dəymiş yaşayış evləri üzrə hər bir ailəyə 1000 manat məbləğində maddi yardımın ayrılması qərara alınıb.

Növbəti mərhələdə isə mülki əhaliyə, dövlətə və sahibkarlıq fəaliyyəti subyektlərinə məxsus dağıdılmış və ya qəzalı vəziyyətə salınmış, qismən ziyan dəymiş yaşayış və qeyri-yaşayış sahələrinin təmir-bərpası işlərinin, həmçinin nəqliyyat vasitələrinə, kənd təsərrüfatı məhsulları və texnikasına, o cümlədən əhaliyə məxsus tələf olmuş heyvanlar üzrə dəymiş ziyanın aradan qaldırılması üçün tədbirlərin həyata keçirilməsinə başlanılacaq.

Göründüyü kimi, Vətən müharibəsi zamanı işğalçı Ermənistan tərəfindən mülki əhaliyə və dövlət əmlakına dəymiş ziyanın aradan qaldırılmasında bütün qüvvələr səfərbərliyə alınıb. Tezliklə dəymiş hər bir zərər aradan qaldırılacaq, evlər və infrastruktur bərpa olunacaq, həyat tamamilə öz məcrasına qayıdacaq. Bu istiqamətdə imzalanan sərəncamlar bir daha göstərir ki, dövlət və onun başçısı İlham Əliyev hər zaman öz vətəndaşının yanındadır.

## Azərbaycan mübarizənin önündədir

### Dövlət başçıları pandemiya ilə birgə mübarizə yollarını müzakirə ediblər

Prezident İlham Əliyev dekabrın 18-də MDB Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasında iştirak edib.

İclasda çıxış edən dövlətimizin başçısı bildirib ki, başa çatmaqda olan ilin dünyada əsas mövzusu pandemiyaya qarşı mübarizə olub. Bizim regionda isə əsas mövzu Dağlıq Qarabağda və onun ətrafında hərbi əməliyyatlar idi.

Pandemiyaya qarşı mübarizə ilə bağlı Azərbaycanın həm ölkə daxilində, həm də beynəlxalq arenada operativ tədbirlər gördüyünü qeyd edən Prezident İlham Əliyev ölkəmizin bir sıra ölkələrə və beynəlxalq təşkilatlara maliyyə yardımı və humanitar yardım ayırdığını xatırladıb.

Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında müharibəyə də diqqət çəkib. Bildirib ki, müharibə nəticəsində Ermənistan silahlı qüvvələrinin potensialının 80 faizindən çoxu məhv edilib.

"İndi, müharibə başa çatandan sonra biz vurulmuş ziyanın həcmini qiymətləndiririk. Yaxın vaxtlarda bərpa işləri başlanacaq. Bu işlər praktiki olaraq artıq başlanıb", - deyən Prezident İlham Əliyev tikinti-quruculuq layihələrinə dost ölkələrin cəlb ediləcəyini bildirib.

Sonra təşkilata üzv ölkələrin dövlət başçıları çıxış ediblər.

## İnkişafımızın beynəlxalq təsdiqi

### Azərbaycan ən islahatçı ölkədir

Dünya Bankı Qrupunun mühüm nəşrlərindən biri olan "Doing Business" hesabatında Azərbaycan bir daha dünyanın "Ən islahatçı on ölkə"si sırasına daxil edilib.

Koronavirus pandemiyasının dünyanı sınağa çəkdiyi, eləcə də, erməni işğalçıları ilə haqq savaşı - Vətən müharibəsi apararaq Qələbə qazandığımız bu dövrdə də Azərbaycanın adının ən islahatçı ölkələr sırasında olması ikiqat qürur doğurur.

Bu günlərdə "Doing Business" hesabatında qeydə alınmış məlumat uyğunsuzluqları ilə bağlı Dünya Bankının Daxili Auditi tərəfindən aparılmış müstəqil araşdırmanın nəticələri elan edilib. Nəticədə ölkəmizin hesabatda mövqeyi 6 pillə yaxşılaşdırılıb. Müvafiq araşdırmalar nəticəsində Azərbaycanda üç istiqamətdə - elektrik təchizatı şəbəkələrinə qoşulma, müqavilələrin icrası, sərhəddə ticarət indikatorları üzrə aparılmış islahatların hesabatda lazımınca qiymətləndirilmədiyi və daha az balla qiymətləndirildiyi məlum olub. Beləliklə, düzəlişlərdən sonra ölkəmizin qlobal reytinq sıralanmasında mövqeyi 191 ölkə arasında 34-dən 28-ə yüksəlib. Nəticədə Azərbaycan Dünya Bankı tərəfindən yenidən dünyanın ən islahatçı 10 ölkəsindən biri kimi qiymətləndirilib. Xatırladaq ki, ölkəmiz "Doing Business 2019" hesabatında da birinci onluqda idi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin həyata keçirdiyi davamlı sosial-iqtisadi inkişaf siyasəti, çoxşaxəli islahatlar bu qurum tərəfindən diqqətlə izlənilir. Odur ki, biznes mühitinin yaxşılaşdırılması istiqamətində son illər ölkəmizdə görülən işlər Dünya Bankının hesabatlarında da öz dolğun əksini tapır və yüksək dəyərləndirilir.

***Prezidenti İlham Əliyev dekabrın 18-də Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidmətinin direktoru Aleksandr Bortnikovu qəbul edib.***

***Prezidenti İlham Əliyev dekabrın 21-də Əfqanıstan İslam Respublikasının milli təhlükəsizlik müşaviri Hamdullah Mohibi və Prezident Administrasiyasının rəhbəri Mohammad Şakir Kargarı qəbul edib.***

***Prezidenti İlham Əliyev dekabrın 21-də Rusiya Federasiyasının fövqəladə hallar naziri Yevgeni Ziniçevi qəbul edib.***

***Prezident İlham Əliyev dekabrın 22-də Azərbaycan Respublikası vətəndaşlarının 2021-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması haqqında sərəncam imzalayıb.***

## Hərbçilərimiz təltif olundu

### Prezident növbəti sərəncam imzalayıb

Prezident İlham Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında Sərəncam imzalayıb.

Dekabrın 18-də imzalanmış sərəncamla Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən cəsarət və fədakarlıq göstərmiş, habelə təşəbbüskar və qətiyyətli hərəkətlər nümayiş etmiş hərbi qulluqçular "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif ediliblər.

Eyni sərəncamla Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş, düşmənin əsas qruplaşmalarını və texnikasını məhv etməklə qoşunlarımızın döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqlənmiş hərbçilər "Cəsur döyüşçü", döyüş tapşırıqlarını yerinə yetirərkən şəxsi mərdlik və igidlik göstərmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin daha bir qrup hərbi qulluqçusu isə "İgidliyə görə" medalı ilə təltif olunublar.

## Uğura gedən yol

### Həmrəyliyimiz bizi aydın sabahlara aparır

Şanlı Ordumuzun qələbəsi, eyni zamanda, dünya ictimaiyyətinə milli birlik və həmrəyliyimizi nümayiş etdirdi. Azərbaycan xalqı öz dövlətini, liderini və Ali Baş Komandanını dəstəklədi, dəstəkləyir. Azərbaycanda son aylar yaşanan hadisələr bir daha göstərdi ki, xalqımız ağır günlərdə bacarıqla bir hədəfə vura bilir. Prezident İlham Əliyev haqlı olaraq bu birliyə istinad edib, xalq - iqtidar birliyini Azərbaycanda sabitliyin, inkişafın əsas şərti adlandırır.

Prezidentə vətəndaşlardan ünvanlanan məktublar da deməyə əsas verir ki, xalqımız Vətən müharibəsində qələbənin əldə olunmasını Prezidentin müdrik siyasi xadim, diplomat və güclü sərkərdə olması na bağlayır. Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız, eləcə də qardaş-dost ölkələrin vətəndaşları belə ordumuzun qazandığı tarixi Zəfər münasibətilə Ali Baş Komandana təbrik məktubları ünvanlamaqda davam edirlər.

Bu gün Azərbaycan xalqı qürur hissi ilə Prezidentin müdrikliyindən, uzaq gələcəyə yönələn strategiyasından və bütün bunların uğurlu nəticəsi olaraq erməni faşizmi üzərində parlaq Qələbədən, əzəli topaqlarımızın azad edilməsindən danışır.

Xalqın rəğbətini, məhəbbətini və dəstəyini qazanmaq hər bir ölkə başçısı üçün ən böyük mükafatdır. Bütün dövrlərdə və yaşanan hadisələrdə Prezidentin hər zaman xalqın yanında olması və xalqın ona olan ehtiramı, güvəni, inamı onu deməyə əsas verir ki, qarşıya çıxacaq hər bir problem bu birlik sayəsində həllini tapacaqdır.

Bütün təhlükələrə rəğmən müharibənin bitməsindən cəmi bir neçə gün sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva azad edilən rayonlara səfər etdi, öz qələbə sevincini xalqla bölüşdü. Bu, həm də onu göstərdi ki, təhlükələrdən və çətinliklərdən çəkinməyən, öz xalqının maraqları naminə qətiyyətlə mübarizə aparan Prezident cəsarətli addımları və siyasi iradəsi ilə seçilir.

# ÖN CƏBHƏNİN ALINMAZ SƏNGƏRİ: ARXA CƏBHƏ

Torpaqlarımızı işğaldan azad etmək üçün apardığımız Vətən savaşı hərb tarixinə ən çevik və mobil müharibə kimi düşdü. Bu gün də modern və güclü orduya malik dövlətlərin hərbi analitikləri Qarabağ döyüşlərində tətbiq etdiyimiz döyüş taktikasını elmi əsaslarla öyrənməyə çalışırlar. Əksəriyyəti müasir hərbi texnikalarımızın, hazırlıqlı və peşəkar hərbçilərimizin sayəsində buna nail olduğumuzu vurğulayırlar.

**Qalibiyyətimizin səbəbi hərbi gücümüz, qüdrətli ordumuzdur, yəni analitiklərin gəldiyi qənaət doğrudur. Ancaq onlar bir nüansı-millətin döyüşkənlik ruhunu nəzərdən qaçırırlar.**

**Yerevan.today** saytına açıqlama verən düşmən əsgərindən sitat: "...Onlar üstümüzə gələndə pulemyotla vururduq, yıxılırdılar, sonra yenə qalxıb üstümüzə şığıyırdılar...Şuşa döyüşləri daha dəhşətliydi. Biz onları yoldan gözləyirdik, amma bir də ayıldıq ki, onlar artıq içimizə giriblər, həm də yalın əllə. Çox dəhşətli bir döyüş idi. Erməni əsgərlərini dişləriylə parçalayırdılar. Xankəndinə gətirilən meyitlərin əksəriyyətinin boyunlarındakı şah damarları dişlə qoparılmışdı...".

Xocalı faciəsinin şahidi olan və ya onu televiziya ekranlarından izləyən oğullar düşməni dişləriylə belə didməyə and içmişdilər. Onlar bu andlarına da Vətən müharibəsində sadiq qaldılar. Düşmən bizə yaşatdıqlarını unutduğumuzu zənn edirdi, ancaq döyüşlər göstərdi ki, biz unutmamışıq, əksinə, illərdir ki, qisas hissi ilə alışıb-yanmışıq.

**Biz həm də ona görə qələbə qazandıq ki, döyüşən əsgərin, zabitin özü arxada qalmadı. Ata-anasından, ailəsindən, balasından nigaran deyildi. Çünki onların arxasında sosial və iqtisadi baxımdan regionun ən güclü dövləti dayanırdı. Dövlətin bütün strukturları ön cəbhə üçün səfərbər olsalar da arxa cəbhə daha etibarlı qorunurdu və baş verə biləcək neqativlərin qarşısının alınması üçün görüləcək tədbirlər an məsələsi idi.**

### QAZANILAN ETİMAD VƏ ETİBAR HƏM DƏ MƏSULİYYƏT YARADIR

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov hərbi vəziyyət dövründə komendant saatının tətbiq edildiyi ərazilərin komendantı təyin edildi.

Daxili İşlər Nazirliyinə mühüm səlahiyyətlərin verilməsi həm də onun üzərinə böyük məsuliyyət qoyurdu. Çeviklik, qərarvermə bacarığı və baş verənlərə vaxt itirmədən dəqiq reaksiya, eləcə də ön cəbhə ilə arxa cəbhə arasındakı əlaqənin mobil şəkildə qurulması götürülən öhdəliyin peşəkarcasına yerinə yetirilməsinin bariz nümunəsi idi.

**Vaxtilə igid oğullarımızla birlikdə eyni səngərdə döyüşən Azərbaycan Polisi Vətən savaşında da onları tək qoymadı. Bütün varlığı ilə Qələbəyə töhfəsini verməyə çalışdı. Cinayətkarlıqla qətiyyətli mübarizə bir an belə səngimədi, strateji və digər dövlət obyektlərinin qorunması peşəkarlıqla yerinə yetirildi.** Vətəndaş-polis münasibətlərinin həmrəylik ab-havasına köklənməsi sosial şəbəkələrin manşetinə çevrildi.





**Vətən savaşına qatılan oğulların sırasında polis övladları da vardı. Onlar atalarının yarım qalmış işini davam etdirmək, işğaldan azad olunmuş torpaqlara bayraq sancmaq üçün ölümlərdən sıyrılıb düşmənə qan uddurdular.**

Dəmir nizam-intizama riayət olunması, hər iki cəbhədə fədakarlıq və dövlətçilik mövqeyi cəmiyyətin Azərbaycan Polisinə olan rəğbətini daha da artırdı. Daxili işlər orqanlarının əməkdaşları Azərbaycan ordusunun yenilməz əsgər və zabitləri kimi, hər iki cəbhənin qəhrəmanı olaraq xalqımızın könlündə taxt qurdular.

Ordumuz Vətən müharibəsinin ilk günlərində düşmənin hədəfinə çevrilən Tərtər və Xocalı Rayon Polis Şöbələrinin, eləcə də cəbhədən xeyli aralıda olan yaşayış məntəqələrimizin, ballistik, fosforlu raketlərlə atəşə tutulan Gəncənin, Bərdənin, Tərtərin, Ağcabədinin, bombardmanlar nəticəsində şəhid olanların heyfini düşməndən aldı. Döyüşlərdə Ermənistan ordusunun yüzlərlə texnikası yararsız hala gətirildi, onlarla tank, top və digər silahlar hərbi qənimət kimi götürüldü. Zəfər paradında biz onları gördük və qürur hissi keçirdik.

### DİN DAXİLİ QOŞUNLARININ HƏRBİ QULLUQÇULARI TARİX YAZDI

Qoşunlar özünün ən müqəddəs missiyasını-Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda sentyabrın 27-də başlayan Vətən müharibəsində də layiqincə yerinə yetirdi. Müharibənin ən qaynar nöqtələrində üzərinə düşən görəvi yerinə yetirmək, işğal altındakı torpaqlarımızı azad etmək üçün Azərbaycan Respublikasının Silahlı Qüvvələri və qanunvericilikdə nəzərdə tutulmuş digər silahlı birləşmələrlə Daxili Qoşunların şəxsi heyəti Ali Baş Komandanın rəhbərliyi ilə həyata keçirilən zəfər yürüşümüzdə, müqəddəs haqq savaşımızda döyüş salnaməmizə adlarını qızıl hərflərlə yazdırdılar.

Vətən savaşında ölümün gözünə dik baxaraq canlarını fəda edən igid oğullarımızın, eləcə də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 65 hərbi qulluqçusunun xatirəsi unudulmayacaq, daim əziz tutulacaqdır.

Yeri gəlmişkən, dekabrın 15-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamları ilə döyüş tapşırığını uğurla yerinə yetirərək Vətən savaşında igidlik və şücaət göstərən, şəhidlik zirvəsinə ucalan hərbi qulluqçular orden və medallarla təltif olundular. DİN Daxili Qoşunlarının xidməti vəzifəsini icra edən bir neçə əməkdaşı, o cümlədən şəhid olmuş 65 hərbi qulluqçusu da təltif olunanlar sırasındadır.

### GÜCLÜ VƏ BÖYÜK AZƏRBAYCANA XİDMƏTDƏN QÜRUR DUYURUQ

Ulu öndər Azərbaycan Polisinin yaranmasının 84-cü ildönümündə deyirdi: "Daxili İşlər Nazirliyi, polis Azərbaycan dövlətçiliyinin keşiyində durub, bundan sonra da duracaqdır. Biz daxili ictimai-siyasi sabitliyi təmin etmişik və siz üzərinizə düşən vəzifələri bundan sonra da yerinə yetirməlisiniz. Mən Azərbaycanın Prezidenti kimi, Ali Baş Komandan kimi sizə etibar edirəm, sizə inanıram, sizə arxalanıram. Bu güc ilə də və bu qüvvə ilə də biz müstəqil Azərbaycanı günü-gündən inkişaf etdirəcəyik və gələcək nəsillərə daha da gözəl Azərbaycan bəxş edəcəyik"...

Müstəqilliyimizin əbədi və dönməz etmək üçün asayişin keşiyində ayıq-sayıq dayanan, cinayətkarlıqla qətiyyətli mübarizə aparan Azərbaycan Polisinə inamını müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev isə belə ifadə edir: "Polisə olan hörmət dövlətə olan hörmətdir. Polis əməkdaşları qanunun keşiyində dayanırlar. Polis əməkdaşları cinayətkarlığa qarşı mübarizə aparırlar. Onlar öz həyatlarını risk altına qoyurlar və vətəndaşlar bunu unutmamalıdırlar. Yəni, cəmiyyətin, ölkəmizin rahat, təhlükəsizlik şəraitində yaşamasını polis orqanları təmin edirlər".

**Bu gün soyuğa, qara, yağışa baxmayaraq, işğaldan azad olunmuş torpaqlarda Azərbaycan Əsgəri ilə birlikdə Azərbaycan Polisi də keşik çəkir. "Bayraq sancmaq bir binanın belə qalmadığı, düşmənin xarabalığa çevirdiyi rayonlarda polis xidmətini necə qurur",-deyə sosial şəbəkələrdən bizə sual ünvanlayan vətəndaşlarımıza, igid oğullarımızı düşünənlərə təkcə bunları demək keçir könlümüzdən: Hər birimizin istəyi, nə yolla olursa-olsun, o torpaqların alınması idi. Biz dəmir yumruğumuzun gücünə torpaqlarımızı işğaldan azad edib, düşmənə ömür boyu unuda bilməyəcəyi məğlubiyyət acısı yaşatdıq. İşğaldan azad olunan torpaqlarda xidmətə gəlincə, demək isdəyirik ki, bu gün əsgərimizin də, polisimizin də təminatı çox yüksək səviyyədədir. Azərbaycan Polisi, Azərbaycan Əsgəri azad olunmuş torpaqlarda xidmətini təşkil edir, üzərinə düşən görəvi layiqincə yerinə yetirir.**

*H.Təmirov*

# Daha bir vacib məqam...

## Pandemiya psixoloji təsirsiz ötüşmür



Yeni növ koronavirus infeksiyası bir ilə yaxındır ki, dünya əhalisini qorxu və təhdid altında saxlayır. Ümumdünya Səhiyyə Təşkilatının, alimlərin mübarizəsinə, səylərinə baxmayaraq, hələ də dünya xəritəsi qırmızı zonadan çıxa bilmir. Yetmiş beş milyondan çox insanın yoluxması, günü-gündən sürətlə artan say, eləcə də virusdan ölənlərin statistikası bunu deməyə əsas verir.

Təəssüflər olsun ki, ölkəmiz də bu bəla ilə üzbəüz qaldı. Aidiyyəti hökumət, qeyri hökumət təşkilatları həyəcan təbili çalaraq pandemiya ilə mübarizəyə başladı. Xüsusi karantin rejiminin tətbiqi, eyni zamanda vaxtında verilmiş düzgün qərarlar, görülmüş preventiv tədbirlər nəticəsində bu gün dünya dövlətləri ilə müqayisədə statistikamız daha aşağı rəqəmlər sərgiləyir. Çünki ilk gündən "Biz birlikdə güclüyük",-deyib əl-ələ verdik, tələb olunan qaydalara, tövsiyələrə riayət etdik və edirik.

Gözəgörünməz düşmənlə mübarizənin qəhrəmanları isə həkimlər və daxili işlər orqanlarının əməkdaşlarıdır. Günümüzün mənzərəsi bunun bariz nümunəsidir.

Bəzi mütəxəssislər pandemiyanın bitməsi ilə bağlı proqnozlar verirlər. Bəziləri isə koronavirusla barışıb həyatımızı davam etməyi tövsiyə edirlər. Fərqli yanaşmalar, fərqli mülahizələr var. Verilən proqnozlara, gəlinən qənaətlərə baxmayaraq, nikbin olaq və pessimizmə qapılmayaq.

**Ancaq diqqət yetiriləsi daha vacib bir məqam, - insanların pandemiyadan aldığı mənəvi-psixoloji zərbəni göz ardı edə bilmərik. "Zamanla keçər",-deyib zamanın öhdəsinə buraxmayaq. Unutmayaq ki, pandemiya dövründə yaşanan psixoloji sarsıntı koronavirus qədər sağlamlığımızı təhdid altına qoyur və fəsadlar özünü müəyyən zaman ərzində biruzə verir. Gələcəkdə psixoloji gərginliyin yarada biləcəyi hallarla qarşılaşmamaq, insanlarda yenidən özgüvən hissini bərpa etmək və ruh yüksəkliyini formalaşdırmaq üçün psixoloji müayinələr də aparılmalıdır.**

*Teymur Əlizadə,*
*polis kapitanı*

**Vətəndaşlar məsuliyyətli olmalı, xüsusi karantin rejiminə əməl etməlidirlər**

# DAXİLİ İŞLƏR NAZİRLİYİ XƏBƏRDARLIQ EDİR

Azərbaycan Respublikasının ərazisində tətbiq edilən xüsusi karantin rejimi dövründə ictimai iaşə obyektləri, o cümlədən restoran, kafe və çay evləri yalnız çatdırılma xidmətinin göstərilməsi və ya onlayn satış əsasında fəaliyyət göstərə bilərlər.

Son günlər ictimai iaşə obyektlərində, o cümlədən restoran və əyləncə mərkəzlərində 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl bayramı ilə əlaqədar şənliklərin təşkili və keçirilməsi ilə bağlı elanlar verilir. Diqqətə çatdırırıq ki, COVID-19 infeksiyasının daha geniş yayılmasının qarşısının alınması məqsədilə kütləvi şənliklərin, konsert proqramlarının təşkili və keçirilməsi yolverilməzdir. Vətəndaşlarımızı belə kütləvi tədbirlərə iştirakla bağlı hər hansı elana və dəvətlərə inanmamağa, xüsusi karantin rejim qaydalarına əməl etməyə çağırırıq.

Tətbiq edilən xüsusi karantin rejimi dövründə kütləvi tədbirlərin, şənliklərin, konsert proqramlarının təşkili və keçirilməsinə cəhdlərin qarşısı tərəfimizdən qətiyyətlə alınacaq, heç bir kütləvi tədbirin keçirilməsinə imkan verilməyəcəkdir. Hər hansı belə fakt aşkarlanacağı təqdirdə təşkilatçılar və iştirakçılar qanunvericiliyə uyğun olaraq, məsuliyyətə cəlb olunacaqlar.

# POLİS KİMİ YAŞAMAQ...

## Polis əməkdaşı "qanun keşikçisi" epitetini həyat tərzilə də ifadə edir

Polis peşəsinin çətin və şərəfli xidmət sahəsi kimi xarakterizə edilməsini müxtəlif cür izah etmək olar. Ola bilsin kimin üçünsə gərgin zehni və fiziki iş xüsusiyyəti xidmətin çətinliyi, vətəndaşa, dövlətə xidmət etmək missiyası isə onun verdiyi şərəf duyğusudur. Bu, doğru təsbitdir, amma hamısı da deyil, artırmaq mümkündür.



Bu peşəni seçənlər yaxşı bilir ki, polis əməkdaşının xidmət reqlamenti yoxdur, iş rejimi qanunla müəyyən edilmiş saatda bitmir. Təqvimdə bəzi günlər başqa peşə sahibləri üçün bayramdır, istirahət vaxtıdır. Və yaxud da, ad günün qeyd edən qızın atası, qardaşı, anası onun yanında istənilən qədər ola bilir və heç kəs bunda qeyri-adilik axtarmır. Valideyni polis olan uşağın isə heç vaxt belə imkanı olmur. O, bilir ki, ata gəlməyəcək - xidmətdədir, bilir ki, yolu çoxları kimi keçmək olmaz - yanındakı qardaşı polisdir, mütləq irad tutacaq, bilir ki, səhər oyananda artıq valideyni evdə olmayacaq - hardasa hadisə yerindədir. Polis övladı başqa uşaqlardan fərqli düşünür, anlayır ki, özünü ad gününə çatdıra bilməyən ata bütün gecə onun və onun kimi uşaqların şirin yuxusunun küçədə keşiyini çəkib...

Bu peşənin polis əməkdaşına öyrətdiyi vərdişlər onda özünəməxsus həyat tərzi formalaşdırır və bu, onun ailə üzvlərindən də yan keçmir. Çətinliyi bütün ailənin çətinliyidir - təbii ki, şərəfi də!

Polis haqqında ilkin təsəvvürü qanun keşikçisi epiteti yaradır. Bu ifadə özlüyündə çox şey demək olsa da, bütün fikri də əhatə etmir. Çünki polis "qanun keşikçisi"ni yalnız inzibatçı kimi deyil, həyat tərzilə də ifadə edir və yaxud etməlidir.



**Deməli, polis əməkdaşının məsuliyyəti onun gündəlik xidməti fəaliyyəti ilə məhdudlaşmır, xidmətdənkənar fəaliyyəti də eyni dərəcədə məsuliyyət tələb edir. İş vaxtı da, işdən sonra da polis əməkdaşı cəmiyyət içində olur və ondan gözlənilən davranış tələbləri dəyişməz olaraq qalır. Vətəndaşların köməyinə tələsmək, onların hüquqlarını və qanuni maraqlarını qorumağa diqqətlə yanaşmaq polis əməkdaşının xarakterik keyfiyyəti, ondan gözlənilən, tələb olunan məziyyət və məsuliyyətin bir parçasıdır.** İstər xidməti formada, istərsə də mülki geyimdə polis əməkdaşı hər yerdə, hər zaman onu tanıyanların nəzərində yaxşı insan, həssas qonşu, nümunəvi ailə başçısı, qanunlar çərçivəsində yaşayan vətəndaş kimi yadda qalmalıdır. Bunu bacarmayan heç bu peşəni seçmir də.

*R.Mehtiyev*

# Fədakar xidmət, qürur doğuran ictimai rəy

## Fəaliyyətimiz sosial şəbəkələrin müzakirə mövzusuna çevrilir

Həyatımızı sosial şəbəkələrsiz təsəvvür etmirik. Bir tvitlə dünya gündəmi dəyişirsə və ictimai rəyə təsir edirsə, deməli, internet üzərindən bir zamanlar xəyal edilən işləri görmək mümkündür.

Bu gün informasiya almaq, həmçinin informasiya ötürmək də an məsələsidir. İnformasiya o zaman sosiallaşır ki, onun yayılması sərhəd tanımır. Sosial şəbəkə anlamı neologizm olsa da, o artıq ümumişlək sözə çevrilib və ictimai rəyin formalaşmasına birbaşa təsir göstərdiyinə görə inkarolunmaz gücdür.



**Dövlətin əsas sütunlarından biri kimi müasirlik ruhunda çağırışlara qoşulan Azərbaycan Polisi gecəli-gündüzlü xidmət aparmaqla, cinayətkarlıqla qətiyyətli mübarizə ilə yanaşı, "Facebook", "İnstaqram" və "Twitter" kimi sosial şəbəkələrdə də fəaliyyətini günün tələblərinə uyğun qurub.** Hər gün DİN-in sosial şəbəkələrinə polisin fəaliyyəti ilə bağlı vətəndaşları maraqlandıran onlarla sual ünvanlanır. Bütün bunlar onu deməyə imkan verir ki, bu gün Azərbaycan Polisinin gərgin xidməti ictimaiyyətin diqqət mərkəzindədir. İstər asayişin qorunmasında, istər cinayətkarlığa qarşı mübarizədə, istərsə də bu çətin pandemiya dönəmində daxili işlər orqanları əməkdaşlarının xidməti vəzifəsini layiqincə yerinə yetirməsi sosial şəbəkə istifadəçilərinin rəylərində öz əksini tapır. **Polisin fədakar fəaliyyəti diqqətlə izlənilir və paylaşılır. Sosial şəbəkələrdən vətəndaş yanğısı boy verir: Azərbaycan Polisi çətin vəziyyətdə olan insanların köməyinə çatır, yardım əlini uzadır, humanist davranışları ilə həm də milli həmrəyliyə öz töhfəsini verir.** Şübhəsiz ki, bu da sosial şəbəkə izləyicilərinin polis haqqında müsbət rəylər yazaraq münasibət bildirməsinə tutarlı səbəblərdən sayılır.

Ölkəmizdə sərt karantin rejimi tətbiq olunur. Bəzən sosial şəbəkələrdə karantin rejimi qaydalarını pozan şəxslərə qarşı polisin lazımi tədbirlər görməsi müzakirə mövzusuna çevrilir. Nəticə isə dəyişmir. Gecəli-gündüzlü xidmət aparan asayiş keşikçilərinin karantin rejimi qaydalarına ciddi riayət olunmasına nəzarət edərək, qanunla müəyyən olunmuş qaydada öz səlahiyyətləri çərçivəsində müəyyən tədbirlər həyata keçirməsi ölkə vətəndaşları tərəfindən təqdir edilir. Polis-vətəndaş münasibətlərinin günü-gündən yaxşılaşdığı bir dönəmdə sosial şəbəkə izləyicilərinin rəylərindən belə bir nəticəyə gəlmək olur ki, bu gün sözün əsl mənasında, polis vətəndaşının yanındadır və ona təhlükədən daha yaxındır.

***Aytəkin Nəcəfova,***
***polis polkovnik-leytenantı***

# Şamaxıda polislər qazimizi ziyarət ediblər



Şamaxı Rayon Polis Şöbəsinin əməkdaşları Vətən savaşında yaralanmış qazimiz, Ovçulu kənd sakini gizir Elşad Mikayılovu evində ziyarət edib, onun qayğıları ilə maraqlanıblar.

Göstərilən diqqətə görə minnətdarlığını bildirən E.Mikayılov həmkarlarımızla döyüş təəssüratlarını bölüşüb və Vətən müharibəsi iştirakçısı olmasından qürur duyduğunu bildirib.

Qeyd edək ki, 2012-ci ildən DİN Daxili Qoşunlarda xidmət edən hərbi qulluqçumuz Vətən müharibəsi başlayandan döyüşlərə qatılıb, Hadrut qəsəbəsinin, Füzuli və Xocavənd rayonlarının işğaldan azad olunmasında igidlik göstərib. O, Şuşa uğrunda gedən döyüşlərdə yaralanıb.

***Mahir Mənsimov,***
***polis baş leytenantı***

# Yolda qalan arzular

## Yol hərəkət qaydalarını pozan piyadanın xəyalları, gələcəklə bağlı planları yarıyolda - hadisə yerində qalır



Piyadaların yol hərəkət iştirakçıları arasında ən "zəif bənd" hesab edilməsinin məlum səbəbləri var. Piyadanı yolda qoruyan yalnız qanunlardır. Ondan kənara çıxmaq özünü dəmir konstruksiyadan ibarət avtomobilin qarşısına atmaq deməkdir. Belə qarşılaşmada sürücü canını sağ qurtara bilir, piyadaya isə şans qalmır. Yolu keçmək istəyən adamın ani diqqətsizliyi səbəbindən ölümlə nəticələnən çoxsaylı yol-nəqliyyat hadisələri baş verir. Oxşar hallar üçün sürücü məsuliyyətsizliyini də buna əlavə etsək, piyadaların vurulması ilə müşahidə olunan qəzaların kədərli statistikası yaranar.

Statistikadan söz düşmüşkən, qeyd edək ki, **bu ilin 11 ayı ərzində respublika ərazisində piyada vurulması ilə nəticələnən 603 yol-nəqliyyat hadisəsi baş verib. Onlardan 278 nəfər həyatını itirib, 352 nəfər isə ağır xəsarət alıb. Hadisələrin sayında isə 14.6 faiz azalma olub.**

Bu hadisələrin hər biri təbii ki, araşdırılıb, təqsiri olan müəyyən edilib, cəza tədbiri görülüb. Ancaq, adətən, cəza elə əvvəlcədən hər iki tərəf üçün, hardasa, bəllidir – piyada öz diqqətsizliyinin əvəzini ölümü ilə ödəyir, yaxud da "bəxti gətirir" ömürlük şikəst olur, canında daim qəzanın ağrılarını, beynində dəhşətini yaşadır. Sürücü barədə hüquqi cəza tədbiri görülsə də, vicdan əzabı ona ömür boyu zindan olan solğun həyat yaşadır. Beləcə, hər iki tərəfin – ölənin də, qalanın da həyatla bağlı qurduqları xoş arzular, sabah üçün qurduqları planlar hadisə yerində bitir.

Yollarda hərəkətin təhlükəsizliyinin təşkili üçün yol polisi əməkdaşları tərəfindən müvafiq zəruri tədbirlərin həyata keçirilməsinin nəticəsidir ki, bu il piyadaların vurulma sayında azalma var və bu ümumi tendensiya baxımından təqdir olunasıdır. Bu yalnız polisin əməyi ilə həll edilən məsələ deyil, hərəkət iştirakçıları da qanun-qaydaya əməl etmənin zərurətini qəbul etməlidirlər.

Yol-nəqliyyat hadisələri insan faktorundan qaynaqlanır, ona görə də yolda insan itkisinə, xəsarət almasına "olacağa çarə yoxdur" məntiqiylə yanaşmaq doğru olmaz. Həyatda nələrisə dəyişmək, korrektə etmək kimi şansımız var. Məsələn, yola çıxan sürücü və ya piyada hərəkətlərində qanunun tələblərini əsas tutsa, eyni zamanda, həyatına da doğru istiqamət vermiş olmazmı? Qaydaları pozub həyatını itirən adamın səhvinə görə hansısa mistik qüvvələrmi günahkardır?

Əminəm ki, bu sualların cavabı çoxumuza məlumdur və çox şeyin insanın elə öz əlində olduğuna şübhə etmirik.

Bununla belə, hər bir hərəkət iştirakçısının mütləq bilməli olduğu bir gerçəklik var; maşından qorxmayan piyada, qanundan çəkinməyən sürücü ilə yolda qarşılaşanda mütləq qəza baş verir. Ölən də, xəsarət alan da qanunları pozduğuna görə qəzanın qurbanı olur. Yol hərəkətinin tənzimlənməsi prosesində piyadaların üzərinə düşən vəzifələrin icrasına könülsüz yanaşdıqları da bir gerçəklikdir. Qanun deyir ki, küçələri piyada keçidlərilə keçmək lazımdır. Ancaq çox vaxt bunun əksini müşahidə edirik. Kimi qaydanı pozma bahasına buna nail olur, kimiləri isə yarıyolda qalırlar. Arzuları kimi...

***Ruslan Vəliyev,***
***polis leytenantı***

# Dələduz saxlanılıb

Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatı məqsədi ilə ölkə başçısı cənab İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Fərmanı ilə yaradılan "YAŞAT" Fondunun adından sui-istifadə edərək pul toplamaq məqsədi ilə sosial şəbəkələrdə vətəndaşlara çağırışlar edən şəxs saxlanılıb.

Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat zamanı qeyd edilən hüquqazidd əməlləri törədən Qaradağ rayonu Lökbatan qəsəbəsində yaşayan Xəlil Quliyev tutulub. Aparılan araşdırmalar zamanı müəyyən edilib ki, bu şəxs əvvəlcə "instagram" sosial şəbəkəsində "YAŞAT" Fondunun rəsmi hesabına oxşar özünə məxsus səhifə yaradıb. Fondun rəsmi səhifəsi ilə saxlanılan şəxsin yaratdığı saxta profil yalnız bir hərflə fərqlənir. Məqsədli şəkildə oxşar adla yaradılan səhifədə X.Quliyevin əsas niyyəti yardım etmək istəyən insanlarda çaşqınlıq yaratmaq və bu yolla pul vəsaitləri əldə etmək olub. Saxlanılan şəxs həmin səhifədə şəxsi kart hesablarını yerləşdirib şəhid və yaralı əsgərlər, eləcə də köməyə ehtiyacı olan şəxslər barədə paylaşımlar edərək guya onlar üçün yardım toplayıb. X.Quliyevin əməlinə hüquqi qiymət verilməsi üçün zəruri araşdırmalar davam etdirilir.

Daxili İşlər Nazirliyi vətəndaşlara müraciət edərək bildirir ki, sosial şəbəkələrdən istifadə edən zaman maksimum dərəcədə ayıq-sayıq davransınlar və insanları aldadaraq mənfəət əldə etməyə çalışan səhifələrdən uzaq olsunlar.

**Nizami RPİ 25-ci Polis Şöbəsi və Dövlət Təhlükəsizliyi Xidmətinin** rayon şöbəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində S.Əliyevanın yaşadığı mənzilə baxış də narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Masallı rayon sakini, əvvəllər məhkum olunmuş Ə.Abdullayev saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 3 kiloqram 510 qram heroin və 495 qram tiryək götürülmüşdür.

******




zamanı oradan 3 kiloqram 200 qrama yaxın heroin, 814 qramdan artıq metamfetamin, metadon və 2 ədəd elektron tərəzi aşkar edilərək götürülmüşdür.

******

**Nizami RPİ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsin-

**Binəqədi RPİ 7-ci PB** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində dekabrın 14-də Bakı şəhər sakini Ş.Aslanovu döyüb 3500 manat pulunu quldurluq yolu ilə almaqda şübhəli bilinən paytaxt sakinləri E.Bayramov və E.Osmanov saxlanılmışlar.

# Bakıdan məktub

**Əziz dostum, hörmətli həmkarım!**

Bəlkə də "dədə-baba" məktublardakı" kimi başlamalıydım sözlərimə; salam-kəlam etməliydim, hal-əhval soruşmalıydım, sonra keçməliydim mətləbə. Ümid edirəm bunu mənim qəbahətim saymayacan, hansı hisslər keçirdiyini, nələr duyduğunu dost olaraq bilmiş olmağıma yozacaqsan.

Səni buradan da "görürəm". Anasının nəfəsinə isinən körpə kimi, sən də dağların qoynuna sığınmısan. Üstünü qar örtsə də doğma torpağın istisi səni qılınc kimi kəsən şaxtadan, qaynar ruhunu nəfəs donduran soyuqdan qoruyur. Qarabağda, Vətənin bağrında, lap ürəyinin üstündəsən. Başını dik tutmusan, gözlərin buludların üzərində günəşin bərq vuran işığıyla parıldayır. Təkcə laçın dağların deyil, qürurun da zirvəsindəsən. Bu gözəllikdən necə qopduq, niyə ayrı qaldıq, necə yaşaya bildik kimi suallara cavab tapmaq üçün yaxın keçmişə boylanırsan. Cavab tapırsanmı, tapmırsanmı, doğrusu, bilmirəm.

Yadımdadır, mən bir neçə il əvvəl şəhid atasının sual dolu kədərli baxışları qarşısında aciz-aciz dayanmışdım. Onun gözlərinin qarasını örtən bəyaz duman dağların ətəyində sürünən seyrək buludlara oxşayırdı. Deyirdi ağlamaqdan tor gəlib gözlərinə... O, deməsəydi belə, bu, aydın hiss olunurdu. Əlini qoynuna salıb birinci Qarabağ döyüşlərində şəhid olan polis oğlunun şəklini səliqə ilə bükdüyü kağızın arasından çıxarıb uzatmışdı mənə. Köhnə, saralmış şəklin bəzi yerlərini qat kəsmişdi və bu izlər dərdli atanın əlinin üzərindəki qırışlar kimi dərin görünürdü.

Əziz dostum, o atanın baxışları altında əzildim, elə bildim ki, bircə anda bütün varlığımı xıncım-xıncım etdilər. O baxışlar dünyanın bütün kədərini çökdürdü üstümə. Ona görə ki, Qarabağda canını fəda edən qəhrəman oğlunun, onun kimi neçə-neçə "paqon" yoldaşımızın uğrunda vuruşduqları torpaqların daha nə vaxta qədər işğalda qalacağının cavabını çoxları kimi, mən də bilmirdim. Bax, sən indi cavabsız suallara axtardığımız cavabsan. Sən o həqiqətin



özüsən – Azərbaycan Polisinin, nəhayət, işğaldan azad olmuş torpaqlarda xidmətə başlamasının təcəssümüsən.

**Hörmətli həmkarım!**

Qarabağda daşı-daş üstə qalmayan, sökülüb talan edilən, yağmalanan kəndlərin, şəhərlərin xarabalıqları sənin üçün yalnız alt-üst olmuş, həyatın dibinə yuvarlanmış insan talelərinin kədərli mənzərəsi təəssüratı oyatmır, əminəm. Orada, hər uçurulmuş evdə, həm də dəhşətli cinayətlərin izləri kabus kimi ətrafında dolanır. Dünya indiyədək o yerlərdə ədalətsizliyə susmaqla, biganə qalmaqla beynəlxalq səviyyədə qorumalı olduğu dəyərləri, qanunları, insan hüquq və azadlıqlarını dəfn edib. Ora işğaldan bəri qanunların da məzarlığı olub. Şübhəsiz ki, bundan sonra qüdrətli dövlətimizin şəfqətli əlləri yaralarımızı sarıyacaq, Qarabağı yenidən həyata qaytaracaq. Sən bir qanun keşikçisi olaraq şərəfli xidmətini azad edilən torpaqlarda hüququn bərqərar olması üçün, bu gün olduğu kimi, sabah da davam etdirəcəksən. Orada dövlət qanunlarının aliliyini sən inşa edəcəksən! Bu, şərəfli missiyanın yükü sənin güclü çiyinlərindədir!

Qoy, dünya da rahat olsun. Qanunlar çərçivəsində yaşayan, hüquqi öhdəliklərinə əməl edən hər bir vətəndaş sənin - Azərbayacan Polisinin təmin etdiyi ədalət, hüquq və azadlıq çətirinin altında təhülkəsiz yaşayıb, bundan sonra da belə olacaq.

**Hörmətlə, dostun,**

***Rəşad Mehtiyev***
***polis baş serjantı***







# Düşmən məğlubiyyət girdabında

## Travma, faciə, dağılmış şəhərlər və talelər...

İkinci Qarabağ müharibəsində Azərbaycanın əldə etdiyi inamlı qələbə bütün dünyanın nəzərlərini ölkəmizin üzərinə cəmləyib. Azad olunan ərazilərə səfərlər edən xarici media təmsilçiləri müzəffər ordumuzun düşmənə endirdiyi sarsıdıcı zərbənin nəticələri barədə yazır, təhlil edirlər.

**Qarabağdan geniş reportaj hazırlayan nüfuzlu "The New York Times" qəzeti də səhfələrində düşmənin ağır hərbi və psixoloji məğlubiyyət girdabına yuvarlanmasına geniş yer ayırıb.**

**"Dağlıq Qarabağ müharibəsindən sonra travma, faciə və dağıntı" adlı ("After Nagorno-Karabakh War, Trauma, Tragedy and Devastation") reportaj erməni vandalizminin təsvirilə başlayır:**

"Viran qalmış şəhərlərə qayıdan azərbaycanlıların ermənilәri bağışlaması çox çətin olacaq.

Fizuli - Azərbaycanın bu yaxınlarda Ermənistandan geri qaytardığı rayondur. Bu yerə getmək adamda Birinci Dünya müharibəsi meydanını xatırladan viran qoyulmuş əraziyə səyahət təəssüratı yaradır. Yollarda kilometrlərcə tərk edilmiş səngər və bunkerlər var, bir kəndin xarabalığını başqa kəndin xarabalıqları əvəz edir, evlərin daşları ətrafa səpələnib, damları, qapıları, pəncərələri çərçivələrilə birlikdə söküb aparıblar.

Bu yerlərdə həyatın olmaması qorxunc tablo yaradır.

Yol kənarındakı mövqelərində vurulmuş erməni tanklarının və zirehli avtomobillərinin qalıqları Azərbaycanın pilotsuz aparatlarının dağıdıcı gücünə dəlalət edir. Atılmış hərbi forma və avadanlıqlar, noyabrın əvvəllərində Azərbaycan silahlı qüvvələrinin rayonu işğaldan azad edərkən, erməni əsgərlərinin təşviş içində geri çəkildiyini göstərir.

Ermənistan tərəfindən ələ keçirilən bu ərazilər on illər sonra, vaxtilə 30 min nəfərin yaşadığı firavan kənd təsərrüfatı qəsəbəsi olan Füzuli şəhərində ictimai binaların yeri indi ağaclar və kol-kosun tutduğu meşəyə çevrilib. Daha böyük dağıntılar şimaldadır. Şimalda yerləşən Ağdam şəhərinin aqibəti daha acınacaqlıdır, şəhərin binalarını səma altında quru bir düzənlik əvəz edir - Ağdamı həyata bağlayan körpülər dağılıb".

**Qarabağ münaqişəsinin tarixinə səthi də olsa diqqət çəkən qəzet ermənilərin müharibədən sonra gedərkən uçurub dağıtdıqları, yandırdıqları evlərin bir vaxtlar azərbaycanlılara məxsus olduğuna toxunur.** Qeyd edilir ki, Azərbaycanın tərkibindəki etnik cəhətdən erməni anklavı olan Dağlıq Qarabağ münaqişəsi dünyanın həll olunmayan ərazi mübahisələrindən biri olub. Ermənistanın 1994-cü ildə yalnız Dağlıq Qarabağı deyil, həm də ətraf ərazilərin böyük bir hissəsini işğal etməsi 800 mindən çox azərbaycanlının sürgün edilməsi ilə nəticələnmişdi.

Rusiyanın vasitəçiliyi ilə barışıqla sona çatan altı həftəlik hərbi əməliyyatlardan sonra Azərbaycanın işğal olunan torpaqlar üzərində nəzarəti bərpa etməsi və bu müharibənin ermənilərdə dərin travma yaratması xüsusilə vurğulanır.

**"Ermənilər üçün bu müharibə evlərindən atılan ailələr, itirilmiş vətən (başqasının torpağına "vətən" demək erməni xislətidir, deyəsən, reportajın müəlliflərinə də sirayət edib), 21-ci əsrin qorxunc müharibəsində öldürülən minlərlə əsgər deməkdir.** Azərbaycanlılar üçün isə evlərindən, ərazilərdən qovulmanın dörddə bir əsr mirasıdır, indi geri alınır, ancaq onlar dağıdılan yurd-yuvalarında hələ illərlə yaşaya bilməyəcəklər".

Reportajı hazırlayan əcnəbi jurnalistlər müharibədə iştirak etmiş həm ermənі, həm də azərbaycanlı hərbçilərlə danışıb daimi sülh prespektivlərini araşdırmağa çalışıblar. Qəzetin əməkdaşları bir qrup erməni könüllü əsgərlə də görüşüblər. Onlar soyuq hava şəraitində meşədə yığışıb sükut və kədər içində yaşlı komandirlərini dinləyirmişlər.

Komandir, 63 yaşlı təqaüdçü polkovnik Artur Aleksanyan jurnalistlərə bir gün bu torpaqlara dönəcəklərinə əmin olduğunu desə də, əsgərlər qorxu içində hərbi əməliyyatlar vaxtı döyüş meydanında əsl cəhənnəmə düşdüklərini deyiblər.

"Polkovnikin əsgərləri Azərbaycanın döyüş meydanında havada fırlanan kamikadze dronlarını dəhşət içində xatırlayırlar", - qəzet yazır. Döyüşə yollanmaq istəyən tanklar işə düşüb yerlərindən tərpənən kimi, silahlı dronlar başlarının üstünü kəsdirib və erməni əsgərləri texnikanı döyüş sahəsində atıb qaçmalı olublar.

Erməni komandir Azərbaycan əsgərlərinin hücum etdiyi vadiyə işarə edib; onun bölüyü o vadidə döyüş mövqeyi tutubmuş və əsgərlərinin çoxu orada ölüb, meyitləri müharibə bitənə qədər həftələr boyu səngərlərdə qalıb.

Reportajın sonlarında ermənilərin Azərbaycanın Türkiyə ilə getdikcə daha yaxın ittifaq içində olmasından qorxduqları qeyd olunur.

# Erməni kimdir?

## "Sən qulsan, sən qorxaqsan, sən ermənisən"



Rusiyanın fikir adamları, tədqiqatçılar, tarixçilər erməniləri daha yaxşı tanıyıblar, bu da yəqin onunla bağlıdır ki, apardıqları araşdırmalar, müşahidələr onlara obyektiv olmağa kömək edib. Məsələn, ermənilər haqqında rus şairi A.S.Puşkinin "Sən qulsan, sən qorxaqsan, sən ermənisən", – sözləri olduqca məşhurdur.

Baxaq görək başqa rusiyalı ziyalılar, tarixçilər Qafqaza bələ kimi gətirdikləri ermənilər haqqında daha nələr deyiblər.

Ərzurum artilleriyasının komandanı və 2-ci Ərzurum qala artilleriya alayının komandiri, podpolkovnik Tverdoxlebov öz xatirələrində yazır ki, mənfur ermənilər döyüş meydanında əsgərin qarşısından qorxaqcasına qaçırlar, əsasən qocaların, qadınların, uşaqların və əliyalın insanların üstünə kütləvi hücumlarda mərd və cəsur olurlar. (Əsl erməni xislətini ifadə edib. İkinci Qarabağ müharibəsində əsgərlərimizin qarşısından qaçıb, cəbhə xəttindən kənarda mülki əhalini raket atəşinə tutmaq məhz bu xislətin növbəti təcəssümü oldu.)

Rus diplomatı A.Qriboyedovun imperatora göndərdiyi məktubdan: "Əlahəzrət, ermənilərin mərkəzi rus torpaqlarında məskunlaşmasına icazə verməyin. Onlar elə bir qəbilədəndirlər ki, bir neçə onilliklər yaşayandan sonra bütün dünyaya çığıracaqlar ki, bu torpaqlar bizim ata və babalarımızındır". (Diplomat burada ermənilərin İrandan Qarabağa köçürülməməsi barədə xəbərdarlıq edib.)

Başqa bir rus diplomatı, general Mayevski "Ermənilərin törətdiyi kütləvi qətllər" kitabında yazır: "Görəsən kimsə ermənilərin xalq qəhrəmanlığı haqqında eşidibmi? Onların azadlıq uğrunda döyüşçülərinin adları harada həkk olunub? Heç yerdə! Ona görə ki, ermənilərin "qəhrəmanları" öz xalqının xilaskarından daha çox onun cəlladı olublar". Müəllif daha sonra kitabında qeyd edir ki, Qarabağın tarixi kökləri antik dövrə gedib çıxır. Qarabağ Azərbaycanın tarixi əyalətlərindən biridir. Bu region Azərbaycanın mühüm siyasi, dini, mədəni mərkəzidir. Qarabağ problemi ermənilərin tarixi saxtalaşdırma ideyasının "məhsuludur".

Rus tarixçi Anninski qədim ermənilərin keçmiş siyasi qüdrətini və mədəniyyətini sübuta yetirən heç bir sənədin qorunub-saxlanmamasını onun təsdiqi hesab edir ki, onların heç nəyi olmayıb: "Qədim ermənilər azsaylı vəhşi qəbilə üzvləri olublar. Ermənilərin bədii yaradıcılığının son dərəcə miskinliyi də bununla əlaqədardır. Onların elmliliyi barədə danışmağa da dəyməz. Ermənilər mövcudluqlarının bütün dövrü ərzində heç bir orijinal əsər meydana çıxara bilməyiblər".

Tədqiqatçı V.Yelixovskaya da eyni qənaətləri bölüşür: "Dünyaya səpələnmiş ermənilər birgə yaşadıqları xalqların adətlərini, ənənələrini, geyimlərini tez mənimsəyirlər. Buna görə də Türkiyədə ermənini türkdən, İranda isə farsdan seçmək olmur".

## Oxucuların diqqətinə!

1933-cü il martın 9-dan bugünə kimi işıq üzü görən "Mübariz keşikdə" qəzeti Daxili İşlər Nazirliyinin rəhbərliyinin təşəbbüsü ilə gələn ildən "Polis" başlığı altında dərc ediləcəkdir.

İnanırıq ki, tarix yaşıdı "Mübariz keşikdə"nin yolunu davam etdirməyi qarşısına məqsəd qoyan "Polis" DİN-in həyatında baş verənlərdən tutmuş, ölkə gündəmində maraqla izlənilən ən mühüm hadisələri işıqlandırmaqla yanaşı, milli kimliyimizi, tarixi əzəmətimizi, ən ümdəsi, dilimizin şəhdi-ni-şirəsini kiçik həcmi ilə, ancaq böyük fədakarlıqla qoruyacaq və gələcək nəsillərə ərmağan edəcəkdir.

102 yaşlı Azərbaycan Polisinin, günümüzün qəhrəmanlarının tribunası, söz xəzinəsi olan "Mübariz keşikdə" illər ötsə də daim xatırlanacaq və bundan sonra davamçısı kimi işıq üzü görəcək "Polis"in yollarında əbədiyaşar söz heykəli kimi mayak olacaqdır.

**2021-ci ilin I yarısı üçün "Polis" qəzetinə abunə olmağa tələsin!**

## Dekabr ayının 16-dan 22-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 116 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 66 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 725, o cümlədən borclu şəxs qismində axtarışda olan 628 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 8 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 10 nəfər ölmüş, 6 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 56 fakt müəyyən edilmişdir.

# MARAQ DÜNYASI

### ÜRƏK QRİPİ NƏDİR?

Qripin ürək çatışmazlığına, ya da ağciyərdə maye toplanmasına səbəb ola biləcəyi barədə məlumatınız var? Bəli, çox zaman ciddi xəstəlik kimi qəbul etmədiyimiz qrip orqanizm üçün təhlükəyə çevrilir.

Qrip, qaraciyərə və ürəyə yayılaraq pnevmaniya və ciddi ürək çatışmazlığına səbəb ola biləcək riskdə bir xəstəlikdir.

Ciddiyə alınmayan qrip virusu keçici olaraq ürək tutulmasına səbəb olarkən, nadir görülən Koksaki qripi virusları isə ürəyə yerləşərək bir müddət sonra zərər verir.

Ürək pərdəsinə yerləşən qrip virusu, pərdədən maye ifrazını artıraraq ürək ətrafında və ağciyərdə maye toplanmasına səbəb olur. Nisbətən yaşlı adamlarda rast gəlinən ürək böyüməsi və ürək çatışmazlığının altındakı səbəblərdən biri də ürəyə yerləşən qrip virusudur.

Adətən, ürək pərdəsi, nadir zamanlarda isə ürək əzələləri bu viruslardan təsirlənir.

Kişilərin daha çox risk altında olduğu ürək qripinin əlamətləri, boğaz ağrısı, halsızlıqdır.

Qripdən fərqi isə bu əlamətlərin zamanla sancma hissi yaradan sinə ağrısı, döyünmə və nəfəs darlığına çevrilməsidir. Qrip əlamətlərinin bu hala çevrilməsi təxminən 10 gün ərzində baş verir.

Təkrarlanma riski çox yüksək olan bu xəstəlik üçün həm ürək dərmanları, həm də iltihab azaldıcı dərmanlardan istifadə olunur.

### AĞIZDAN NƏFƏS ALMAQ ZİYANDIR

Düzgün nəfəs almaq stressdən yorğunluğa, kalori yandırmaqdan yuxu rejiminə kimi bir çox problemlərin həll yoludur.

Bunun üçün ağciyərləri hava ilə tam doldurmaq lazımdır. Nəticədə qəbul edilən oksigen ürək-damar sistemi vasitəsilə bütün orqan, ilik, əzələ və hüceyrələrə göndərilir. Bu, vücudun qidalanmasıdır.

Dərindən nəfəs almaqla insanlar yorğunluğu azaldıb, stressdən azad ola bilərlər və iş fəaliyyətləri fayda verər.

Eyni zamanda, bir saniyədə burundan alınan nəfəs dörd saniyədə ağızdan verilməlidir. Ağciyərlər tam dolan vaxt bədənə göndərilən oksigen sayəsində qan dövranı artır və maddələr mübadiləsi sürətlənir. Lakin ağızdan nəfəs almaq çox təhlükəlidir və bu ürək xəstəliklərinə səbəb ola bilər. Çünki bu zaman ağciyərlər kifayət qədər aktiv olmur, ürək zəif işləyir və qan laxtalanmır. Buna görə də, mümkün olduğu qədər burunla nəfəs almaq lazımdır.

*Hazırladı: R.Əliyeva*

## Dünyanın ən güclü hərbi hava qüvvələri

"Global Power" ən güclü hava qüvvələrinə malik ölkələrin siyahısını açıqlayıb. Siyahıda 60 ölkə yer alıb. Ən güclü hərbi hava qüvvələri sırasında ilk onluqda 3 müsəlman dövləti də var.



1. **ABŞ**
2. **Rusiya**
3. **Çin**
4. **Hindistan**
5. **Cənubi Koreya**
6. **Yaponiya**
7. **Pakistan**
8. **Fransa**
9. **Türkiyə**
10. **Misir**

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10436
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 18:00
Qiyməti 40 qəpik
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.